

XƏYAL ZEYNAL

# POEZİYA ÇƏLƏNGİ

Tövşüyürəm qanın, tərin içində,
Çörək çıxmır bunca şərin içindən,
Başım itib fikirlərin içində,
Hər fikirdə neçə-neçə baş yatıb.

Ömrüm bitib bu səbirdə, dözümdə,
Səbir yanıb, dözüm bişib közümdə,
Hər bir dərdin izi olan gözümdə
Damla-damla buz bağlamış yaş yatıb.

Od püskürüb, qəm saçıram dinəndə,
Gün görmürəm bu kədərdən, bu qəmdən,
Dünya boyda ürək vardı sinəmdə,
İndi isə dünya boyda daş yatıb.

*09.05.2020*

***

Bir gözəlin ürəyinə girmişəm,
Damarları qana həsrət qalıbdır.
Sıxıntıdan, dərd çəkməkdən üzülən
Cansız cismi cana həsrət qalıbdır.

Bir gözəlin ürəyinə girmişəm,
Hər tərəfdə fikir üzür, dərd üzür.
Əli, qolu məni alıb cənginə,
Bu nə tamah, niyə belə sərt üzür?

Bir gözəlin ürəyinə girmişəm,
Zülmət çöküb döngəsinə, tininə.
Ağrısını, acısını duyuram,
Haqq verirəm qəzəbinə, kininə.

Bir gözəlin ürəyinə girmişəm,
Ürəyimdən qan qatıram qanına.
Qədəh-qədəh dərdlərini içirəm
Sağlığına, şərəfinə, şanına.

Bir gözəlin ürəyinə girmişəm,
Təkliyimi unutdurub o mənə.
Dərdi, qəmi yavaş-yavaş azalır,
Mən qəminə sarılıram, o mənə.

Bir gözəlin ürəyinə girmişəm,
Sağı, solu qopardılmış yaradır.
Mən yaralı ürəklərə məlhəməm,
Bundan sonra mənim evim buradır.

*Mart, 2020*

***

Dünyadan gileyli qəmgin rəssamam,
Özümü çəkəndə səfil çəkirəm.
Güzgüdə bu susqun halıma baxıb,
Nə ağız çəkirəm, nə dil çəkirəm.

Yurdumu düşünüb, bir ah çəkirəm,
Qaralmış üzümə duvaq çəkirəm,
Çəkəndə kül olmuş ocaq çəkirəm,
Nə çəmən çəkirəm nə gül çəkirəm.

Fikir dənizində itib, azıram,
Ölən arzulara məzar qazıram,
Dərdimdən, qəmimdən şe'r yazıram,
Hər şe'rin içində şəkil çəkirəm.

*2018*





***

Qüssəsiz, kədərsiz yer axtarıram,
Qəlbimdə çoxalan arzularıma.
Beynimdə anbaan yer dəyişərək,
Toplanıb, çıxılan arzularıma.

Bezmişəm zamanın pis gərdişindən,
Rəzil əməlindən, qəddar işindən,
Sərdabə tikirəm, qəmin dişində
Didilib, dağılan arzularıma.

Hər gecə yuxuda sayıqlayıram..
Ümid kündələyib, arzu yayıram,
Allahdan diriliş arzulayıram,
Doğulub, boğulan arzularıma.

*19.04.2020*

***

İstəyirsən biləsən ki, necəyəm?
Gir içimə, qarış-qarış gəz məni!
Sevinc tapsan sənin olsun, tapmasan,
Gey dərdimi ayağına, əz məni!

Bu vətənə gül deyiləm, qanqalam,
Hey irəli can atsam da, çox dalam,
Otuz illik çözülməmiş misalam,
Bacarırsan vərəq götür, çöz məni!

Bas qələmi ürəyimin başına,
Qan fışqırsın üzüyünün qaşına,
Bu vətənin çınqılına, daşına,
Torpağına, qayasına çiz məni!

Bu sürgündə, qəriblikdə can qalar?
Tutuşmaz ey bir-birinə parçalar.
Bıçaq götür, tikələrə parçala,
Ac itlərin qabağına düz məni!

Gəl, ay gülüm, daha da çox yorma, gəl,
Silah götür, neyçün-nədən sorma, gəl,
Çox sızlatma, çox yalvartma, durma, gəl,
Vicdanımın caynağından üz məni!

***

Ürəyimiz cızıq-cızıq,
Taleyimiz yazıq-yazıq,
Yazmır qələm, susub yazıq,
Yazılmamış yer qalıb ki?!

Bu yurd mənə gəlmir tanış,
Daş üstündə daş qalmamış...
Oyulmamış, çapılmamış,
Qazılmamış yer qalıb ki?!

Sinəm dağlı bu vətəndə,
Yolum bağlı bu vətəndə,
Yad tapdaqlı bu vətəndə
Basılmamış yer qalıb ki?!

Başım daşlı, üzüm şıram,
Doğulandan lalam, karam,
Nə söz desəm günahkaram,
Yozulmamış yer qalıb ki?!

Aparıb ey qəm huşumu,
Həm ömrümü, həm başımı,
Hardan asım göz yaşımı,
Asılmamış yer qalıb ki?!

***

Uzanmışam..
Ürəyimin istisini qış aparır.
Ya dərd məni qucaqlayır,
Ya da gəlib, huş aparır.

Bu cür gərdiş məni yorur,
Gələn vurur, gedən vurur,
Çölümü şaxta qovurur,
İçimi qurd-quş aparır.

Torpaq altı dərd karvanı,
Torpaq üstü insan qanı,
Qismət-qədər az insanı
Xoş gətirib, xoş aparır!

Dərddən dağ var bu vətəndə,
Düşür nə tora, nə bəndə,
Hər çapmağa gedən bəndə
Özü boyda daş aparır.

Yad daşlayıb yaddaşımı,
Tapammıram başdaşımı,
Hara aparım başımı?
Dünya özü baş aparır.